# Qubadlıda yüksək seçki fəallığı qorundu

**Erməni işğalından xilas olan Qubadlı sakinlərinin çoxu Sumqayıtda müvəqqəti məskunlaşıb. O səbəbdən 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 53 saylı məntəqəsi Sumqayıt şəhər 3-cü mikrorayonda Bəhmən Mehdiyev adına Qubadlı şəhər 2 saylı tam orta məktəbdə təşkil edilmişdir.**

1484 nəfərin qeydə alındığı məntəqənin sədri Müşfiq Quliyev bizimlə söhbətində bildirdi ki, 16 müşahidəçi seçki prosesini izləyir. Müşahidəçilər seçki prosesində hər hansı qanun pozuntusu faktı ilə rastlaşmadıqlarını dedilər.

1929-cu ildə doğulan İlqar Quliyev: "Ötən 30 il bizə həsrət yaşatdı. 44 günlük müharibədə isə Ali Baş Komandan və cəsur oğullarımız bizə müzəfférlik və zəfər anlarını bəxş etdilər. İnşallah, yaxın illərdə hamı öz yurduna qayıdacaq. Biz ailəliklə qələbəmizə, zəfərimizə və gələcək işıqlı günlərə səs verdik. Allah bizə öz yurdumuzda səs verməyi qismət eləsin. Mən əminəm ki, tezliklə o günü də yaşayacağıq".

Dairənin 36 saylı məntəqəsi Sumqayıtın İnşaaçılar qəsəbəsində yerləşən İşıqlı kənd tam orta məktəbin binasında təşkil edilmişdir. Məntəqənin sədri Fərhad Yusifov bildirdi ki, rayonun bir neçə kəndinin əhalisini əhatə edən məntəqədə 1197 seçici qeydə alınmışdır. Səhər seçkiyə start veriləndən onlar bir-bir, iki-iki, ailəliklə gəlib səs verdilər. Sədr onu da bildirdi ki, məntəqə üzrə yaşlı nəslin bir nümayəndəsi səs verib. İlk dəfə səs verənlər isə 3 nəfərdir. Cavanların çoxu həqiqi hərbi xidmətdədir.

Seçkidə iştirak edən Elçin Rəhimov və İmdad Bəkirov dedilər ki, qubadlılılar həmişə seçkilərdə fəal olublar: "Bu gün də hər birimiz layiq bildiyimiz namizədə səs vermək üçün gəlmişik. Hər kəs öz inandığı namizədə səs verməklə vətəndaş borcunu yerinə yetirmişdir".

Məntəqədə hər namizədin müşahidəçiləri seçki prosesini izləyirdilər. 16 müşahidəçinin hamısı seçki gedişindən razı qaldıqlarını bildirdilər. Seçkiyə veb-kamera vasitəsilə də nəzarət edilirdi.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 2 sentyabr (№ 189).- S.12.